# “Vətən varlığımız, qürurumuzdur”

*Yolumuz dağlar qoynunda yerləşən, havası, çayları, bulaqları, meşələri ilə dillər əzbəri olan rayonlarımızdan birinədir. Yol mənə çox uzun gəlir... Elə bilirdim, bu yol bitməyəcək... Hərbi hissəyə yola düşürük. Təbiətin gözəlliyi bizə könül xoşluğu verir. Yolboyu hiss edirəm ki, payız olsa da, təravətini itirməyən yaşıllıqlar "göydə axtarıb yerdə tapdığımız" əsl sərvətdir.*



"Azdı sevdiyini gətirmək dilə, gərəkdir könüllər çıxa görüşə." İgid, mərd oğulların görüşünə gəldik... Gəldik ki, igid ruhlarının gəzdiyi məkanı görə bilək. Səhərin sübh şehi, dağların ağ qarı, dərənin mehi "hər şey çox gözəldir" - deyir. Bu torpağın dağları, daşları, bulaqları, meşələri danışır. Mən sizinlə görüşdən bir nağıl günü yaşayacam, əsgər qardaşım. Bu görüşdə bir doğmalıq, qəlblərdə də, təbiətdə də bir hərarət hiss etdim.

İnsan həyatı təbiət hadisələrini xatırladır. Bu gün təbiətin gözəlliklərinin təsiri altında sanki güllü-çiçəkli bir yaz günü yaşayırıq.

Bu təəssüratlarla hərbi hissəyə çatırıq. Zabit Emin Vəliyevin müşayiəti ilə düşmənlə yaxın məsafədə olan bir neçə döyüş postuna baş çəkirik. Postlara qalxdıqca zabit Vəliyev bildirir ki, dağlar qoynunda yerləşən bu bölgənin sakinləri də dağ vüqarlı, məğrur və əyilməzdir. Ermənilər onların rahatlığını pozsa da, Vətənə və yurda bağlılıq hissini qıra bilməyib. Əksinə, bu torpağın qəhrəman övladlarının qəzəb və nifrətini artırıb, onların Vətən, torpaq, yurd sevgisini alovlandırıb.



Döyüş postlarından birindəyik. Anlayıram ki, burada mənfur düşmənlə üz-üzə dayanmaq üçün cəsarət, qürur lazımdır.

Əsgərlərin qidalanması üçün yaradılmış ərzaq anbarına və əsgər yataqxanasına baş çəkirik. Əsgərlər üçün yaradılan şəraitin yüksək olduğunu görürük. Əsgər yataqxanasına daxil olan kimi sağ tərəfdə divarda bir vaxtlar bu hərbi hissədə xidmət etmiş Milli Qəhrəmanların - Qasım Qarayevin və Naiq Yusifovun şəkillərini görürük. Ayaq saxlayıram. Baş gizir Samir Rzayev verəcəyim sualı hiss edibmiş kimi sözə başlayır: "Vətən bizim varlığımız, fəxrimiz, qürurumuzdur. Vətən uğrunda, onun azadlıq və istiqlaliyyəti yolunda canını qurban verən, xalqın rifahı və xoşbəxtliyi naminə şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, ölümsüzlüyə qovuşurlar. Onların şərəfli döyüş yolunu özümüzə örnək hesab edirik".

- Döyüş növbətçiliyinin düzgün təşkil olunması nəticəsində düşmənin bütün təxribat cəhdlərinin qarşısı vaxtında alınır, - deyir gizir Rzayev. - Torpaqlarımızı göz bəbəyi kimi qoruyuruq. Düşmən aprel döyüşlərindən sonra əsgərlərimizin qətiyyətini və döyüş əzmini hiss etdi. Bu qələbə şəxsi həyatimizə yüksək döyüş ruhu aşıladı. Bir daha təsdiqləndi ki, mənəvi-psixoloji ruh döyüşdə ən vacib amillərdən biridir.

Əsgər Şəmsi Aslanovla söhbətləşirik. Qubanın Xınalıq kəndində dünyaya göz açan Şəmsi Universitet məzunudu. Xidmətini başa vurmağa sayılı günləri qalıb. "Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir", - deyir. "Biz Vətən sevgisini, qəhrəmanlığı ruhumuzda hiss edirik. Qəhrəmanlar həmişə xatirələrdə yaşayacaqdır. Əmim Nadir



Aslanov bu torpağın düşmən tapdağından azad edilməsi uğrunda canını qurban verib - şəhid olub."

Əsgər Yusif Əkbərov Şamaxı rayonundandır. Yusif bildirir ki, ön xətdə xidmət etməsindən qürur hissi keçirir. Düşmənlə üzbəüz səngərdə döyüş növbətçiliyi aparmasından fəxarət duyur. Müsahibim xidməti zamanı Yalçın Şabanov, Şəmsi Aslanov kimi dostlar qazandığını da qeyd edir.

- Əslində, belə dostları mənə hərbi xidmət, döyüş postu, çətin şərait bəxş etdi, - Yusif Əkbərov deyir. - Vətən belə qeyrətli, mərd oğullarının çiynində Vətəndir. Dayandığımız mövqelər elə bir zirvədədi ki, biz o zirvəyə baxanda qürur hissi keçiririk.

Ağcabədi rayonunun Sarıcalı kəndində doğulub boya-başa çatan əsgər Sənan Lələyev qisas hissi ilə alışıb yandığını bildirir: “Özümüzü dərk etdiyimiz andan torpaq dərdi, Vətən yükü gözümüzün önündə dayandı. Ona görə də mən və əsgər dostlarım ancaq bir hisslə yaşayırıq - qisas. Bu gün ön xətdə qulluq edən bir əsgər kimi deyə bilərəm ki, hamımızda böyük coşqu var.”

Əsgərlərdən Cavadxan Kərimov, Yalçın Şabanov, Elvin Məhərrəmov və başqaları da belə bir yüksəklikdə xidmət etməkdən qürurlandıqlarını, hər cür şəraitlərinin olduğunu və yuxarı komandanlığın onlara diqqət və qayğı göstərdiyini bildirdilər. Vətənə, dövlətə bundan sonra da şərəflə xidmət edəcəklərini dedilər.

Gördüklərimiz bizi çox məmnun etdi. Bir daha şahidi olduq ki, bu gün sərhədlərimizin keşiyini çəkən ordumuz güclü və qüdrətlidir. Atalar sözüdür: “Ordusu olmayan xalqın xoşbəxtliyi də olmaz.” Bir də deyiblər ki, sərhədi qorunmayan Vətənin ürəyinə güllə tez dəyər. Sərhədi möhkəm və keçilməz olan Vətənin sinəsini gülçiçək bəzər, başının üstündə həmişə aydın səma olar...

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**